

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 207 (23.118)

*30 oktyabr 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərinə səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi önünə gül dəstələri qoyublar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərində inşa olunan Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər.

Heydər Əliyev Mərkəzində görülən işlərlə tanışlıq zamanı məlumat verilib ki, burada ümummilli liderin yeni abidəsi ucaldılıb. Ulu öndərə şəkililərin sonsuz məhəbbətinin təcəssümü olan Heydər Əliyev Mərkəzinin tikintisinə 2018-ci ilin martında başlanılıb. Yüksək səviyyədə aparılan tikinti işləri bu ilin oktyabrında başa çatdırılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Dövlətimizin başçısına və birinci xanıma Şəki rayonunun Kiş kəndindəki Alban məbədinə aparan dairəvi avtomobil yolunun tikintisi və yolboyu ərazinin abadlaşdırılması layihəsi barədə də məlumat verilib.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəkidə Bayraq Muzeyinin, Şəki-Kiş avtomobil yolunun, Şəki "ASAN Həyat" kompleksinin, Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində qarışıq tipli uşaq evi üçün inşa olunan yeni binanın, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışlarında iştirak ediblər.



## Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Qədim Naxçıvan torpağının yetirdiyi görkəmli mütəfəkkirlərindən biri də Nemətullah Naxçıvanidir (Nemətullah Mahmud oğlu Şeyx Əlvan Naxçıvani). Orta əsrlərdə yaşamış Nemətullah Naxçıvani türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr vermiş, təsəvvüf və təfsir alimi kimi böyük şöhrət qazanmışdır. Nemətullah Naxçıvani 1452-ci ildə Naxçıvanda doğulmuş, dövrünün görkəmli alimlərindən təhsil almış, dünyəvi və dini elmlərə dərindən yiyələnmişdir. O, 1478-1487-ci illərdə Naxçıvan mədrəsələrində müəllimlik etmiş, 1487-ci ildə Təbrizə gələrək burada elmi fəaliyyətlə məşğul olmuş, sonra Türkiyədəki Ağşəhərə gedərək ömrünün sonuna kimi orada yaşamışdır.

Nemətullah Naxçıvaninin elmi dünyagörüşünün formalaşmasında və kamilləşməsində Naxçıvan ictimai-mədəni və elmi mühitinin mühüm təsiri olmuş, ona "Baba" titulu burada yaşadığı illərdə sufi təriqəti tərəfindən rütbə kimi verilmişdir. Şərqin böyük filosofu Nemətullah Naxçıvaninin elmi yaradıcılığında qədim türk sivilizasiyası ilə islam dini dünyagörüşü vəhdət təşkil etmişdir.

Dərin biliyə və yüksək mənəvi keyfiyyətlərə malik olan Nemətullah Naxçıvaninin digər təfsirlərə müraciət etmədən yazdığı "Qurani-Kərim"in elmi-nəzəri şərhi olan "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" ("Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi") əsəri islamşünaslığa böyük töhfədir. Nemətullah Naxçıvani məşhur elmi-fəlsəfi traktat, şərh və risalələrin müəllifi kimi Azərbaycan və Türkiyə elm tarixində mühüm yer tutur. Onun Azərbaycan, ərəb və fars dillərində yazdığı əsərləri hazırda Türkiyədə kitabxana və muzeylərdə saxlanılır. Türkiyə Respublikasındakı Ağşəhərdə Nemətullah Naxçıvaninin adına dini orta məktəb fəaliyyət göstərir.

Zəngin elmi-fəlsəfi irsə malik olan görkəmli mütəfəkkir Nemətullah Naxçıvani yaradıcılığının öyrənilməsi və tədqiq edilməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 oktyabr 2018-ci il*

## Naxçıvanda Türkiyə Cümhuriyyətinin 95-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edilib





Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 95-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak edib.

Tədbirdə Azərbaycan və Türkiyə Respublikalarının dövlət himnləri səsləndirilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 95-ci ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxumuşdur. Daha sonra Baş konsul çıxış edərək Türkiyə Cümhuriyyətinin yaranmasından və keçdiyi inkişaf yolundan danışmışdır. Məhmət Emin Kiraz dünyada etibarlı tərəfdaş kimi tanınan Türkiyənin qardaş Azərbaycanla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini bildirmiş, ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, qarşılıqlı səylər və həyata keçirilən birgə tədbirlər əməkdaşlığın müxtəlif istiqamətlər üzrə inkişafına töhfə verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin müstəqillik bayramı – Cümhuriyyət elan edilməsinin 95-ci ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edərək demişdir: Dövlət müstəqilliyi hər bir xalqın ən böyük sərvətidir. Müstəqilliyi əldə etməklə yanaşı, onu qoruyub saxlamaq da əsas şərtdir. Ötən 95 ildə Türkiyə Respublikası böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə gedərək dövlət müstəqilliyini möhkəmləndirmiş, dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir. Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığımızı daha da möhkəmləndirir. Ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının da mühüm rolu vardır. Muxtar respublika ilə Türkiyənin yaxın vilayətləri arasındakı əlaqələr hər keçən gün daha da inkişaf edir, qarşılıqlı faydalı əlaqələr qurulur.

Ali Məclisin Sədri milli bayram münasibətilə qardaş Türkiyə xalqını bir daha təbrik etmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır... Əminəm ki, Türkiyə-Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və genişlənəcəkdir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Aqrar sektor əhalinin ərzaq təminatında xüsusi çəkiyə malikdir

***Etibarlı ərzaq təminatında başlıca sahələrdən biri aqrar sektordur. Muxtar respublikamızda bu sahənin inkişafına göstərilən diqqət və qayğının ifadəsidir ki, son illər xeyli uğura nail olunub, idxaldan asılılıq, demək olar ki, aradan qaldırılıb. Bunu cari ilin ilk doqquz ayının nəticələri də təsdiq edir. Əkinçilikdə mütərəqqi üsullara geniş yer verilməsi, daha çox ehtiyac duyulan məhsulların əkilib-becərilməsi, bu məqsədlə maarifləndirmə tədbirlərinin aparılması və metodik köməkliklərin göstərilməsi öz bəhrələrini verib.***



Faktlara müraciət edək. 2018-ci ilin məhsulu üçün muxtar respublikada 61min 935 hektar sahədə əkin aparılıb. Bu, 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur. Həmin dövrdə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çox, yəni 352 milyon 466 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Süfrələrimizin şahı hesab olunan çörək və çörək məhsullarının istehsalında strateji sahə kimi taxılçılığın inkişafına ciddi önəm verilməsi təbiidir. Bunun ifadəsidir ki, taxılçılıqla məşğul olanlara yüksək reproduksiyalı toxumların, gübrələrin verilməsi, torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikalarından, kreditlərdən istifadəsinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Taxıl tədarükünün yekunu da belə deməyə əsas verir. Belə ki, 2018-ci ilin məhsulu üçün 32 min 483 hektar sahədə taxıl əkilib, bunun 30 min 925 hektarı payızlıq, 1558 hektarı isə yazlıq taxıl olub. Taxıl zəmilərinin 22 min 632 hektarında buğda, 9851 hektarında isə arpa əkilib. Bu isə o deməkdir ki, ötən illə müqayisədə taxıl əkini sahəsi 851 hektar artıb. Əkinlərə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərilib. Çəkilən zəhmət hədər getməyib. Taxıl zəmilərindən 97 min 689 ton məhsul tədarük edilib. Bu, əvvəlki illə müqayisədə 4270 ton çoxdur.

İkinci çörək sayılan kartof mətbəximizin ən çox tələb olunan ərzaq məhsuludur. Kartofçuluqda zəngin təcrübə qazanılan muxtar respublikamızda bu sahənin inkişafına ciddi önəm verilir və kartofçuluğa maraq ildən-ilə artır. Cari ildə 3215 hektar sahədə kartof əkini aparılıb. 1 oktyabr 2018-ci il tarixə 3153 hektar sahədən 48 min 473,9 ton kartof yığılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradıb. Hər iki təsərrüfat sahəsində bu il qazanılan nəticələr uğurludur: meyvə tədarükü ötən ilə nisbətən 4,3 faiz, tərəvəz tədarükü isə 0,7 faiz artıb. Daha dəqiq desək, meyvə bağlarından 39 min 780,12 ton, tərəvəz əkini sahələrindən 72 min 816,9 ton məhsul götürülüb.

Muxtar respublikamızda üzümçülük köklü ənənələrə malikdir. Sovet dönəmində yetişdirilmiş üzüm məhsulları keçmiş SSRİ-nin müxtəlif respublikalarına göndərilirdi. Lakin min bir zəhmətlə hasilə gətirilmiş bağların kökünə ötən əsrin səksəninci illərinin sonlarında balta vuruldu, üzümlüklər sıradan çıxarıldı. Bu sahənin əvvəlki şöhrətini özünə qaytarmaq üçün son illərdə həyata keçirilən kompleks tədbirlər artıq öz bəhrələrini verməkdədir. Keçirilən iməciliklərdə torpaq mülkiyyətçilərinə məxsus sahələrdə salınan üzüm bağlarında, əsasən, yerli sortlardan istifadə diqqət mərkəzində saxlanılır. Yetişdirilən məhsul muxtar respublikaya kənar yerlərdən gətirilən məhsulların qarşısını almaqla, həm də keyfiyyəti ilə seçilir. Məlumat üçün bildirək ki, bəhs olunan dövrdə 9848 ton üzüm yığılıb, bağlarda məhsul tədarükü davam edir.

Qeyd edək ki, digər əkinçilik sahələrində qazanılan uğurlar da qənaətbəxşdir. Belə ki, bəhs olunan dövrdə 104 min 413 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 10 min 256,5 ton dən üçün qarğıdalı, 760,6 ton dən üçün günəbaxan, 36 min 621 ton ərzaq üçün bostan məhsulları tədarük edilib.

O da vurğulanmalıdır ki, əkinçilikdə başlıca amillərdən biri də təsərrüfat suyuna olan tələbatın ödənilməsidir. Ötən dövr ərzində bu istiqamətdə bir sıra işlər görülüb və görülməkdədir. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 600 hektar sahəni əhatə edəcək yeni qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib. 2 subartezian quyusunun bərpası, 11 kəhrizin təmiri başa çatdırılıb, 1 subartezian quyusunun tikintisi, 5 kəhrizin təmiri aparılır. Bundan əlavə, muxtar respublikada "Pivot" layihəsi çərçivəsində 1000 hektar əkin sahəsində müasir suvarma sistemlərinin quraşdırılmasına başlanılıb.

Görülən işlər sırasında istixana təsərrüfatlarının və soyuducu anbarların yaradılmasını da qeyd etməyə dəyər. Bu dövrdə muxtar respublika əhalisini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda 1 istixana təsərrüfatı yaradılıb, digər belə bir təsərrüfatın fəaliyyəti isə genişləndirilib. Babək rayonunda tutumu 2500 ton olan soyuducu anbarın yaradılması, Şərur rayonunda soyuducu anbarın genişləndirilməsi hazırda davam etdirilir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı da ilbəil yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 319-u bəhs olunan dövrdə, ümumilikdə, 2373 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. 215 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 45-i nağd yolla satılıb. Bu dövrdə məhsul istehsalçıları 5082,5 ton mineral gübrə ilə təmin olunub.

Muxtar respublikanın coğrafi iqlim şəraiti burada yüksəkkeyfiyyətli ət və süd məhsullarının istehsalında başlıca amillərdən biridir. Elə tarixən də heyvandarlığın diyarımızda inkişaf etdirilməsinə böyük önəm verilib. Hazırda da bu sahəyə diqqət və qayğı göstərilir. Baytarlıq xidmətinin səviyyəsi yüksəldilir, müntəzəm olaraq mal-qara arasında xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirilir, yeni heyvandarlıq təsərrüfatlarının yaradılmasına ciddi önəm verilir. Bu tədbirlər cari ildə də davam etdirilib. Belə ki, ilin ötən dövründə 15 heyvandarlıq təsərrüfatı fəaliyyətə başlayıb, ikisinin isə genişləndirilməsi başa çatdırılıb. 3 heyvandarlıq təsərrüfatının yaradılması, birinin isə genişləndirilməsi davam etdirilir. Bu sahənin inkişafı üçün verilən kreditlərin həcmi də ildən-ilə artır. Cari ilin ötən dövründə bank və kredit təşkilatları tərəfindən bu sahəyə 3 milyon 872 min 600 manat kredit verilib. Bu, əvvəlki illə müqayisədə 3,5 dəfə çoxdur.

Göstərilən qayğının ifadəsidir ki, ötən 9 ayda muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 117 min 969 başa, qoyun və keçilərin sayı 728 min 733 başa çatdırılıb. Heyvanların baş artımı məhsul istehsalına da təsirini göstərib, adıçəkilən dövrdə muxtar respublikada diri çəkidə 18 min 630,4 ton ət, 71 min 178,7 ton süd istehsal olunub.

Muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Süni Mayalanma Mərkəzinin yaradılması davam etdirilir.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə 2 quşçuluq və 1 balıqçılıq təsərrüfatının yaradılması, birinin isə genişləndirilməsi üzrə işlərin davam etdirilməsi də ötən 9 ayın uğurlarıdır.

Muxtar respublikada arıçılığın inkişaf etdirilməsi və kənd yerlərində əhalinin məşğulluğunun təmin olunması üçün də mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunub. 2018-ci ilin 9 ayında da bu sahədə müvafiq tədbirlər görülüb, təsərrüfat subyektlərinə 262 min 800 manat kredit verilib. Bu da əvvəlki illə müqayisədə 9,7 dəfə çoxdur.

Qazanılan uğurlarda başlıca amillərdən biri də dövlət maliyyə dəstəyinin davamlı xarakter almasıdır. Belə dəstək cari ildə də göstərilib, kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektləri, ümumilikdə, 2,9 dəfə çox olmaqla, əvvəlki illə müqayisədə 4 milyon 530 min 300 manat güzəştli kreditlərlə təmin edilib.

Onu da qeyd edək ki, etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırıb, 2018-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikadan 85 milyon 784 min 300 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub.

Daha bir təsərrüfat ili başa çatmaqdadır. Muxtar respublikanın torpaq mülkiyyətçiləri bu mövsümdə yetişən məhsulları toplayır, gələn ilin bol taxılının əsasını qoymaq üçün şum qaldırılması və taxıl əkini ilə məşğul olurlar. Onlar əmindirlər ki, çəkəcəkləri zəhmət hədər getməyəcək, daxili bazara öz töhfələrini verəcəklər.

**Muxtar MƏMMƏDOV**

***Ölkə başçısı cənab İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" muxtar respublikamızda tütünçülüyün inkişafına yeni vüsət verib.***

## Gəlirli sahə olan tütünçülük inkişaf etdirilir



Oktyabr ayının 9-da dövlət başçısının sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident cənab İlham Əliyevin tütünçülükdəki çatışmazlıqlardan, hazırda görülən işlərdən və qarşıda duran vəzifələrdən bəhs etməsi dövlətimizin bu sərfəli təsərrüfat sahəsinin inkişafına göstərdiyi diqqətin ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da gəlirli sahə olan tütünçülüyün inkişafı, tütün emalı sahələrinin yaradılması və xammala olan tələbatın yerli istehsal hesabına ödənilməsi üçün işlər davam etdirilir. Bunu Şərur rayonunun timsalında da görə bilərik. Bu bölgənin təbii iqlim şəraiti tütünçülüyün inkişaf etdirilməsi üçün olduqca əlverişlidir.

Məlumat üçün bildirək ki, ötən əsrin yetmiş-səksəninci illərində rayonda hər il 3-3,5 min ton yüksəkkeyfiyyətli quru tütün istehsal olunurdu. İbadulla, Ərəbyengicə, Aralıq, Axura, Həmzəli, Aşağı və Yuxarı Yaycı kəndlərindəki ictimai təsərrüfatlarda keyfiyyətli tütün yetişdirilirdi. 3 nömrəli tütünçülük təsərrüfatı kimi ixtisaslaşmış Püsyan kəndindəki ictimai təsərrüfatda hər il 250-300 ton quru tütün hasil edilirdi. Bu kənddə həm də mexaniki qurutma məntəqəsi tikilmişdi. Təəssüf ki, səksəninci illərin sonlarında kənd təsərrüfatında yaranmış tənəzzül tütünçülükdən də yan keçmədi. Müstəqilliyinin ilk illərində Azərbaycanda yeni iqtisadi sistemə keçidlə əlaqədar iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatının gəlirli sahələrindən hesab olunan tütünçülüyün inkişafında müəyyən çətinliklər yaransa da, son illərdə dövlət tərəfindən aparılan davamlı və sistemli iqtisadi islahatlar bu problemləri aradan qaldırmaqdadır. Əsas məqsədlərdən biri də tütünçülüyü dirçəltmək hesabına kənd əhalisinin məşğulluğunu təmin etməkdən ibarətdir.

Bu ilin yazında Zeyvə, Düdəngə, Maxta, Kürçülü, Kərimbəyli, Oğlanqala, Aşağı Aralıq və digər kəndlərdə, ümumilikdə, 11,8 hektar sahədə tütün əkilib. Vaxtlı-vaxtında əkinlərə qulluq göstərilib. Maxta kənd sakini Gündüz Qurbanov erkən yazda 2,5 hektar sahədə tütün əkib. Artıq tütünün son qırımı yekunlaşıb, qurudulan məhsul Naxçıvan şəhərində fəaliyyət göstərən "Cahan Tobacco" Məhdud Məsuliyyətli Cəmiyyətinin emal müəssisəsinə göndərilir.

Tütün sahəsindən 4 tondan artıq hazır məhsul əldə edən sahibkar deyir ki, Şərurun tütünçülük ənənələrinin bərpası istiqamətində qarşıya qoyulan məqsədə çatmaq üçün möhkəm baza yaradılır. Zəhmətimizin qarşılığını ikiqat çıxarırıq. Dövlət bizə hər cür kömək göstərir. Tütünün şitilini əldə etmək də çətin deyil. Onu "Cahan Tobacco"dan alırıq.

Qırım bitdikdən sonra əsas işlərdən birinin də tütün yarpaqlarını birbir şişlə ipə düzmək olduğunu diqqətə çatdıran sahibkar deyir ki, əvvəllər qadınlar bu işə çox vaxt sərf edir, əvəzində isə az miqdarda əməkhaqqı alırdılar. Bu gün isə bizə yaradılan imkanlardan istifadə edərək müasir avadanlıq – tütüntikən maşın almışıq. Bu texnika ilə saatlarla görülən işi tez bir zamanda yekunlaşdıra bilirik. Belə ipə düzülən yarpaqlar çox asanlıqla asılır, tez də quruyur. Bu da tütünün keyfiyyətini itirməsinin qarşısını alır. Bir sözlə, dövlətimiz kəndliyə hər cür şərait yaradıb. Bizə düşən isə yaradılan şəraitdən istifadə edib torpaqlarımızdan dördəlli yapışmaqdır.

İqtisadi cəhətdən xeyli sərfəli olan bu bitki haqqında ətraflı məlumatı isə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənovdan alırıq:

– Tütünün kök sistemi mil şəklində olur, yaxşı şaxələnir və çoxlu saçaqlar verir. İstiliksevən bitkidir. Torpağın tipindən və botaniki sortlardan asılı olaraq tütün əkiləcək sahələrdə şumun dərinliyi 27-30 santimetrə çatdırılmalıdır. Nəzərə almaq lazımdır ki, bu, tütünün keyfiyyətinə və məhsuldarlığına çox təsir edir. Şum altında hektar hesabı ilə gübrələmə aparılması yaxşı nəticə verir. Şitil isə sahəyə şum qatında torpağın temperaturu 10-12 dərəcəyə çatdıqda, daha doğrusu, aprel-may aylarında köçürülür. Basdırılan şitillər sağlam, boyları 12-14 santimetr uzunluğunda olmalıdır. Əgər torpaq kifayət qədər nəm deyilsə, tarla suvarılmalıdır. Vegetasiya dövründə bitkilərin dibləri və cərgəaraları alaqlardan təmiz və yumşaq saxlanılmalıdır. Hər suvarmadan sonra torpaq mütləq yumşaldılmalıdır. Birinci becərmə şitil basdırıldıqdan 8-10 gün sonra 6-8, sonrakı becərmələr 10-15 gün fasilə ilə 10 santimetr dərinlikdə həyata keçirilir. Vegetasiya suvarmaları şırımla aparılır. Bu dövrdə yemləmə gübrələrinin verilməsi bitkilərin məhsuldarlığını xeyli yüksəldir. Birinci yemləmə gübrəsi kimi tütünün 2-3 cüt yarpaq fazasında suvarmadan əvvəl hər hektara 1-2 sentner superfosfat və azot gübrəsi verilir. İkinci yemləmə isə qönçələnmənin başlanğıcında aparılır. Tütün bitkisinin becərilməsində vacib aqrotexniki tədbirlərdən biri də ucvurmadır. Bu tədbirə qönçələnmənin əvvəlində başlamaq lazımdır.

Əsgər Həsənov bildirir ki, tütünün əsas zərərvericiləri olan danadişi, mənənə, şalalar, tütün tripisi, sovkavar, məftil qurdları, tarla ilbizi, xəstəliklərdən isə yalançı unlu şeh, kök, gövdə, qaraayaq, qara çürüməri bitkiyə ciddi zərər verir. Odur ki, xəstəlik və zərərvericilərə qarşı mübarizə mütəmadi olaraq aparılmalıdır. Tütün bitkisi növbəli əkin kimi taxıldan, çuğundurdan və paxlalı bitkilərdən sonra becərildikdə yaxşı nəticə verir. Tütün, öz növbəsində, payızlıq və yazlıq taxıl bitkiləri üçün yaxşı sələf sayılır.

Son illərdə muxtar respublikada kənd təsərrüfatının bütün sahələrinin inkişafına göstərilən qayğı öz bəhrələrini verməkdədir. Artıq kənd adamı görür ki, sahib olduğu torpaq onun daimi iş yeridir. Bu imkanlardan səmərəli istifadə yaxşı gün-güzəran deməkdir. İxrac üçün də xeyli gəlirli olan bu sahənin yenidən dirçəldilməsi məqsədilə görülən işlər isə torpaq mülkiyyətçilərinə əlavə gəlir gətirəcək.

**Ramiyyə ƏKBƏROVA**

# Muzeylərimiz ziyarət edilib

Oktyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini və Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət ediblər. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq zamanı ziyarətçilərə eramızdan əvvəl V-III minilliklərə aid olan müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, qiymətli eksponatlar haqqında ətraflı məlumat verilib.



Nuh Peyğəmbərin məzarüstü türbəsində bildirilib ki, təxminən, 7500 il bundan əvvəl baş vermiş ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindikləri gəmi ilk dəfə Naxçıvanda quruya çıxıb, onlar burada məskən salıblar. Zaman-zaman dağıntılara məruz qalan məzarüstü türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2006-cı il 28 iyun tarixli "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Sərəncamına əsasən bərpa edilib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin və struktur qurumlarının əməkdaşları Heydər Əliyev Muzeyini, Nazirlər Kabinetinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyini, Daxili İşlər Nazirliyinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Ədəbiyyat Muzeyini, Ali Məhkəmə, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşmış məhkəmələrin əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsini, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini, Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin əməkdaşları Dövlət Bayrağı Muzeyini, Dövlət Gömrük Komitəsinin kollektivi Bəhruz Kəngərli Muzeyini, Maliyyə Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasını ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivi Nəbatat bağında, İqtisadiyyat Nazirliyinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində, Dövlət Nəqliyyat Xidmətinin kollektivi Xatirə Muzeyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağlar Türbə Kompleksində, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi Cəmşid Naxçıvanskinin ev-muzeyində, Mədəniyyət Nazirliyinin əməkdaşları Duz Muzeyində, Mərkəzi Seçki Komissiyası, Dövlət Sosial Müdafiə Fondu və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin, "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Naxçıvan Biznes Mərkəzində olublar.

Qeyd edək ki, oktyabrın 27-də muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeyləri ziyarət ediblər.

✍ **Nail ƏSGƏROV**

---

Oxunması zəruri olan kitablar

# Hüseyn Cavidin hikmət xəzinəsindən: *düşünən və düşündürən "Azər"*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamında böyüməkdə olan nəsillərin hərtərəfli inkişafına, şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərə biləcək əsərlər seçilib mütaliə üçün tövsiyə olunmuşdur. Siyahıdakı kitablarda yeniyetmə və gənclərin sağlam ruhda formalaşması, o cümlədən vətənpərvərlik tərbiyəsi, tarixi keçmişə, milli kökə bağlılığının möhkəmləndirilməsi, siyasi dünyagörüşünün yetkinləşməsi, müstəqil dövlət quruculuğu prosesində iştiraka hazırlanması, ailədə, cəmiyyətdə davranış qaydalarına yiyələnməsi və digər mühüm vəzifələr öz ifadəsini tapmışdır. Oxunması zəruri olan kitabların siyahısında yer alan əsərlərdən biri də mütəfəkkir şair-dramaturq Hüseyn Cavidin "Azər" poemasıdır.***

Azərbaycan ədəbiyyatında romantizmin böyük ustadı sayılan Hüseyn Cavidin möhtəşəm ilham və istedadla yazılmış lirik-romantik, fəlsəfi şeirləri, "Azər" poeması, "Ana", "Maral", "Şeyda", "İblis", "Şeyx Sənan", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Uçurum", "Xəyyam", "Səyavuş" və sair pyesləri söz sənətimizin ideya-bədii mükəmməlliyə malik qiymətli inciləri sırasına daxildir. Ümummilli liderimiz Heydər Əliyev Hüseyn Cavidin əsərlərinin tərbiyəvi əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəbliləri, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır".***




Dahi sənətkarın monumental "Azər" poeması da bu baxımdan xüsusi dəyərə malikdir. Dərin didaktik məzmunlu bu poemada... Dərin didaktik mündəricənin dolğun bədii vasitələrlə ifadə olunduğu bu əsərin baş qəhrəmanı Azərin dili ilə, əslində, Hüseyn Cavid bir çox məqamlarda özünün sosial-mənəvi kredosunu, əxlaqi-nəsihətamiz düşüncələrini oxuculara çatdırmışdır. Lirik-epik xarakterli bu poemada müəllif Azəri müxtəlif məkanlarda və rəngarəng səciyyəli situasiyalarda təsvir edir. Oxucu Azəri gah Azərbaycanda, gah da Avropada görür, müxtəlif hadisə və təzahürlərə onun münasibəti ilə tanış olur. Təsvir və təqdimlərdə əksər hallarda düşüncələrin, qənaətlərin arxasında müvafiq gerçəkliklər dayanır. Başqa sözlə desək, Cavidin bu dəyərli poemasında həyatın sərt həqiqətləri, müxtəlif reallıqları və onların oyatdığı təəssürat romantik-fəlsəfi tərzdə canlandırılmışdır. Həle əsərin əvvəlində Azər barədə oxuyuruq:

*Azər düşünür... Bəlkə, otuz yıldır o hər an*
*Düşkün bəşərin eşqini, fəryadını inlər.*

Göründüyü kimi, Hüseyn Cavidin filosof təbiətli qəhrəmanı insanlığın taleyi üçün narahatdır, onun düşüncələri bəşərin səadəti barədədir. Azərin azadlıq amalı da bunun tərkib hissəsi olmaqla: "Hürr ol!" – deyə qəlbində doğurmuş yeni ilham", yaxud "Bən əbədi hürriyyətin sevdalı bir cilvəsiyəm" kimi misralarda üzə çıxır.

Səhifədən-səhifəyə keçdikcə ictimai mündəricə, Vətən, xalq, bəşər taleyi barədə düşüncələr daha qabarıq və konkret şəkildə təzahür edir. Məsələn, Azər küçədə ağlayan bir qızcığaz görür, öyrənir ki, kasıb ailənin övladı olan bu məktəblinin dərs kitabını birisi qapıb qaçmışdır. Elmə, təhsilə dərin inam bəsləyən, bunun xalqın gələcəyi üçün böyük əhəmiyyətini yüksək qiymətləndirən Azər uşağa pul verir ki, yeni kitab alsın, çünki "Sağalır elm ilə hər türlü yara". Burada daha bir ibrətli məqam da diqqəti çəkir. Azərin məktəbli qıza pul verdiyini görən bir avara yeniyetmə də yaxınlaşaraq yardım istəyir. Azər isə onu tənbeh edərək halal əməklə məşğul olmağa çağırır, çünki "Mərhəmət var ki, zəhərlər yarını". Yəni sağlam bir yeniyetməni ələbaxımlılıq psixologiyasına alışdırmaq, ümumən, xalqın sabahı üçün ziyanlıdır.

Ümumiyyətlə, əsərdə elmin, maarifin təbliği, fanatizmin, cəhalətin tənqidi mühüm yer tutur. Poemanın qəhrəmanı uydurma fanatik söhbətlərlə xalqın başını tovlayan şeyxə və onun ətrafına toplaşanlara irad tutaraq bildirir ki, qarşıda iki yol var: ya cəhalətdə qalmaq, ya da elmləri öyrənib tərəqqi tapmaq: "Başqa yol yok, ya fənn, ya mevhumat". Azər bələlərinin diqqətini Vətənə və xalqa yönəldərək bildirir ki, məmləkətin hər yerində "Həp kütübxanə, məktəb olmalıdır". Məhz elmin, təhsilin, sosial-mədəni tərəqqinin köməyi ilə "eşi bulunmayan şu sönük torpaqların hər bucağında cənnət qurula bilər". Poemanın "Köydə" adlı bölümündə Azərin kənd müəllimi ilə mükaliməsi də bu baxımdan xarakterik olub özünün tərbiyəvi-didaktik mahiyyəti ilə diqqəti çəkir. Əsl müəllimi el rəhbəri sayan, xalqın tərəqqisində maarifin roluna böyük önəm verən Azər gənc pedaqoqa xitabən deyir:

*Tutduğun yol böyük...Sən el rəhbərisin,*
*Bütün səslərdən üstündür sənin səsin.*
*Bağır, hayqır, can ver issiz bucaqlara,*
*Bilgi nuru yağdır sönmüş ocaqlara…*
*Çalış, bütün boşluqlar əzminlə dolsun,*
*Hər bataqlıq çiçəkli bir cənnət olsun.*
*Bilgi saçar hər qaranlıq yurda işıq,*
*Yalnız əmək verər bizə bəxtiyarlıq.*

Ümumiyyətlə, poema boyu Hüseyn Cavid Azəri müxtəlif hadisələrlə və şəxslərlə qarşılaşdırır, bütün bunların fonunda müəllif özünün konseptual düşüncələrini, Vətən övladlarına arzularını, nəsihətlərini dilə gətirməkdə davam edir. Mütəfəkkir ədibin tövsiyəsi belədir ki, insan nəfsinin əsiri olmamalı, öz mənafeyini güdməməli, haqq, həqiqət naminə fəaliyyət göstərməli, xoşbəxtliyi Vətənə xidmətdə aramalı, xalq üçün çalışmalı, əməyi ilə yurdu, cahanı çiçəkləndirməlidir:

*Nəfsinə xor baqan bir qəhrəman ol,*
*Haqq üçün başından keçən insan ol!*
*Xayır, xudkam olub sapma dar yola,*
*Həp el için ağla, el için sızla…*
*Bir eyilik yapsan issiz yurduna,*
*Səadət pərisi gülümsər sana…*
*Bəxtiyarsın, əgər çəkdiyin əmək*
*Cihan sərgisinə versə bir çiçək.*

Poemada diqqəti çəkən ən mühüm məsələlərdən biri də fiziki və mənəvi qüvvətin əlaqəsi barədə mühakimələrdir. Müəllifin qənaəti belədir ki, haqqı, həqiqəti sübuta yetirmək üçün qüvvət ən vacib şərtlərdəndir. Amma insanın ağlı, zəkası – bir sözlə, mənəvi gücü yoxdursa, onda qüvvət də yetərli deyil:

*Qüvvətin varsa, haq sənindir, əvət.*
*Lakin insanda yoqsa əqlü zəka,*



"Mənim tanrım gözəllikdir, sevgidir" tamaşasından səhnə
Azər (Cavid) rolunda Vaqif Əsədov
Naxçıvan, 1982-ci il

*Sadə qüvvətdə yoq səmər əsla.*
*Əldə meyar olursa əqlin əgər,*
*Ölçülür pək qolayca xeyr ilə şər...*
*Rəhbər olsun da qüvvətin, ağlın.*

Ulu Cavidin fiziki və mənəvi faktorları vəhdətdə düşünməsi sülh və hərb anlayışlarına münasibətdə də özünü göstərir. Şair yazır ki:

*Yeri gəldikdə sülh için çabala,*
*Öylə yer var ki, hərbi alqışla.*

Yəni mütəfəkkir ədib həm fiziki, həm də mənəvi gücün imkanlarından müvafiq məqamlarda istifadəni, yeri gələndə haqq işi üçün vuruşmağı da məqsədəuyğun hesab etmişdir. Məzlum Şərq ellərinin səadətə, istiqlala qovuşması üçün mübarizəni vacib sayması da bu konseptual yanaşmanın tərkib hissəsi kimi üzə çıxmışdır. Böyük amallar ardınca gedənlərin cəsarətli, qorxmaz, yenilməz iradəyə sahib olmalarını vurğulayaraq: "Cihan yigit ərlərindir, qorqaq gözə çöp düşər", – deyən Hüseyn Cavid həm şəxsiyyətin, həm də, bütövlükdə, cəmiyyətin, xalqın səadət yolunun mübarizədən keçdiyini əminliklə vurğulayır.

Həyatın mənasını xalqa xidmətdə görən Cavid obrazlı şəkildə onu da nəzərə çatdırırdı ki, dünyada həyatı ölümdən də zəhərli olanlar var, ömrünü Vətənin, millətin yüksəlişinə sərf edənlərin ölümü isə həyata bərabərdir:

*Ölüm var ki, həyat qədər dəyərli,*
*Həyat var ki, ölümdən də zəhərli.*

Bəllidir ki, ustad sənətkarın yaradıcılığında gözəllik məfhumunun xüsusi yeri var. "Mənim tanrım gözəllikdir, sevgidir", – deyən şair yalnız zahiri faktorları nəzərdə tutmur, əksər məqamlarda mənəvi kamillik amalına da xüsusi önəm verirdi. "Azər"də də analoji mühakimələrlə rastlaşırıq. Poemanın bölümlərinin birində şənlikdə iştirak edən qızların: "hansımız daha gözəlik?" sualına Azərin verdiyi tutarlı cavab da bu baxımdan Cavidin estetik-əxlaqi kredosu kimi mühüm dəyərə malikdir. Müəllifin haqlı qənaətinə görə, mənəvi gözəllik, təmiz qəlb, kamil zəka olmayanda zahiri hüsn, bənzərsiz yaraşıq da yarımçıq görünür:

*Eşsiz olsun da camalın, nə çıqar,*
*Mənəvi hüsnünü bir yoqla, nə var?*
*Bir çoq afət bilirim, üzləri xoş,*
*Ruhu düşkün və sönük, içləri boş…*
*Gözəlin, bəncə, ən ülvi sifəti:*
*İncə ruh, əqlü zəka səltənəti.*

"Azər" poemasında bu fikirlərin davamı kimi Cavidin qadın azadlığı məsələsinə yanaşması da diqqəti çəkir. Bəllidir ki, poemanın yazıldığı 1920-ci illərdə Azərbaycanda qadınların çarşaflarını atması geniş xarakter almışdı. Cavid qadın azadlığını alqışlamaqla yanaşı, həm də vurğulayırdı ki, zahiri örtük sayılan çarşafı atmaq tam azadlığa qovuşmaq deyil, əsas məsələ beyinlərdəki, düşüncələrdəki cəhalət pərdəsini, mənəvi buxova çevrilən manеələri aradan qaldırmaqdır.

"Azər" poemasının əxlaqi-didaktik qənaətlər sistemində milli adət-ənənəyə münasibət də mühüm yer tutur. Əsərin qələmə alındığı 1920-ci illərdə Azərbaycanda proletkultçuluq deyilən bir hərəkat, ideoloji doktrina geniş yayılmışdı. Bu ideyanın tərəfdarları klassik ədəbi-mədəni irsə, əsrlərin sınağından çıxmış milli adət-ənənələrə inkarçı mövqedən yanaşır, onları yeni cəmiyyət üçün gərəksiz sayırdılar. Kənddə bir gənc müəllimin el adətincə toyda güləşməsini Azər də maraqla seyr edir. Müəllim düşünür ki, bu hərəkəti Azərə xoş gəlməyəcək. Lakin Cavidin qəhrəmanı xalqın çoxəsrlik ənənələrinə ehtiramını, onların sovet cəmiyyətinin ulduzlu adətlərindən daha dəyərli olduğunu bildirir, həmçinin "sağlam bədən-sağlam ruh" prinsipini də xatırladır.

"Azər" poemasında şairin Avropa həyatına dair müşahidələri də geniş yer tutur. Bəllidir ki, Cavid 1926-cı ildə müalicə üçün Almaniyada olmuşdu. Həmin vaxt Qərb həyatını, mühitini dərindən müşahidə edən sənətkar düşüncələrinin böyük qismini "Azər"də poetikləşdirmişdir. Avropanın sosial-iqtisadi və mədəni tərəqqisini təqdir etməklə yanaşı, humanist sənətkar müşahidə etdiyi bəzi nöqsanları, kapital dünyasının bir sıra rəzalətlərini, haqsızlıqlarını da konkret hadisələr və faktlarla dilə gətirmişdir. Təsirli məqamlardan biri də sosialist inqilabından sonra Qərbə üz tutmağa məcbur qalmış mühacirlərlə bağlıdır. Şair onların ağır güzəranını təsvir etməklə yanaşı, bildirirdi ki, bu mühacirlər Vətənə qayıda bilməzlər: "Çünki yaxalandınsa son dəhşət..."

Və nəhayət, əsərin sonluğu: Vətənpərvər ədib yurdun sabahına, gələcəyin qurucuları olan gənclərə böyük ümidlərlə poemanı yekunlaşdırır. İnanır ki:

*Onlardakı qüdrət və məharət,*
*Er-gec verəcək xalqa səadət...*
*Onlar güləcək, güldürəcəklər,*
*Bizdən daha xoş gün görəcəklər!*

Ulu öndərimiz Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanda Hüseyn Cavidin doğma Vətənin, xalqın azad gələcəyi, xoş günlərə qovuşması barədə arzuları yüksək səviyyədə, hərtərəfli şəkildə həyata keçmişdir. Hüseyn Cavidin dərinmənalı əsərləri, o cümlədən "Azər" poeması bu gün də böyük tərbiyəvi əhəmiyyətini, təsir gücünü saxlamaqdadır.

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, professor***

# Bir payız tablosu qarşısında

*(esse)*



***Bu, cansız bir tablo deyil... Evlərimizin divarından da asılmayıb... Onunla hər gün yüzlərlə insanın keçdiyi şəhərimizin küçə-meydanlarında, park və xiyabanlarında qarşılaşırıq. Bu tablonun "müəllifi" yayın geri çəkilib yerini öz "əlləri" ilə təhvil verdiyi payızdır. Budur, ağacların ağ saçlara dən düşmüş kimi yaşıldan sarıya çönən yarpaqları hələ də özünü payızın solğun günəşinə təslim etməyib yaşıllığını saxlayan otların üstündə qəribə bir harmoniya yaradıb. Bir azdan xəfif bir külək əsir – payız küləyi. Xəzəl ömrü yaşayan yarparların havada bir rəqsinə bax. Bu külək payızın hələ tam hakim kəsilmədiyi ağaclardan yalnız özünəməxsus olan sarı yarpaqları qoparıb alır qarşısına.***

Küçələrdə, səkilərdə bir-biri ilə sanki "qovala-qaç" oynayır yarpaqlar, biri qaçır, o birilər düşür onun ardınca. Nəhayət, toplaşırlar özlərinə sığınacaq sandıqları bir divarın dibinə, bir ağacın altına. Bu dəfə artıq külək yarpaqları yerindən qopara bilmir, lakin onun təsirindən qulaqda bir-birinə toxunan xəzəllərin "xışıltı" adlı nəğməsi səslənir. Gözlərim önündə, həqiqətən də, baxmaqla doyulmayan bir tablo var – payız tablosu. Səhərdən bəri şəhərimizdə qarşısında dayandığım bu canlı tablonu bir qədər də seyr etmək üçün skamyalardan birində əyləşirəm.

Bir-birini əvəz edən mənzərələr məni xəyalən əvvəlki illərə aparır – muxtar respublikamızın blokadaya salındığı ilk illərə. Yaydan payıza girəndə elə bizim də, təbiətin də "qan ağladığı" o illərə. Təbii qazın, elektrik enerjisinin yoxluğu insanları çarəsiz vəziyyətə saldığı kimi, kəsiləcəkləri "ürəklərinə daman" ağaclar da anaları təbiətin qoynundan biryolluq ayrılacaqlarına, ona əlvida deyəcəklərinə matəm tuturdular. Ömrünün növbəti payızını yaşamadan kəsilən meşələrin "sakinləri" bu alın yazısına boyun əyərək beləcə, yanacağa çevrilirdilər. Yol kənarlarındakı ağaclarsa doğranaraq tamamilə seyrəlmiş, onların torpaqdan bir qədər yuxarıda qalan gövdələri isə baxdıqca kədərləndiyimiz "təbiət qəbiristanlığı"na çevrilmişdi. Həyət-bacalarda da ağac-budaq qalmamışdı. Hamısı payızın əvvəlindəcə kəsilib qarşıdan gələn qarlı-çovğunlu qışa tədarük edilirdi.

O illərin sanki yağışı-çovğunu, qarı-boranı da tam başqa idi. Bunu, bəlkə də, evlərimizdə, məktəblərimizdə, iş yerlərimizdə isti yer tapa bilməməyimiz, payızın-qışın soyuq günlərini əllərimizi ovuşdura-ovuşdura başa vurmağımız səbəbindən bu cür xatırlayırıq. Həmin illərdə uçub-tökülən, köhnəlikdən miskinləşən küçələrimiz, parklarımız payızın yağışlı günlərində zığ-palçıqdan keçilməz olurdu. Gözəl qızılı-sarı yarpaqlar da çirkaba qarışaraq bu gözəl fəslin hüsnünə xələl gətirirdi. Qarşıdan gələn qışın xofu isə insanların başını saysız-hesabsız qayğılara elə qarışdırırdı ki, payızın necə gəlib-getdiyini belə, az qala hiss etmirdilər. Soyuq, qaranlıq, bir-birindən çətin günləri arxada qoyduqca bir az da "Qorxma o qışdan ki ardınca yaz gəlir" deyiminin istisinə sığınaraq yazın gəlməsini həsrətlə gözləyirdik...

Tər-təmiz küçələrlə heç bir maneə rəqslərinə, qaçışmalarına xələl gətirməyən yarpaqların xışıltısı, bir də toran vaxtı olduğu üçün küçə işıqlarının yanması məni xəyallardan ayırır.



Ətrafa nəzər salıram. Daha valehedici mənzərələrlə qarşılaşıram: üzərinə işıq şüaları düşən yarpaqların parıltısı, qızılı-sarı yarpaqların skamyaların üzərindəki gözəl xalı görüntüsü, yanımdan dəstə-dəstə ötən insanların payızın xoş mənzərələrini bir-birlərinə göstərərək onu körpə bir uşaq kimi oxşamaları... Bir qədər aralıda qoca, cavan, uşaq – bir xeyli adamın bu təmiz havanı ciyərlərinə çəkmək üçün gəzişdikləri və addımların xəzəlin yeni bir "nəğməsini" yaratdığını..

Qalxıram…bağdan ayrılıb, sıx ağacların cərgələndiyi küçə ilə üzüyuxarı addımlayıram. Yolboyu küçələrdəki, inzibati binaların qarşısındakı işıqlar… Yaşayış binalarının pəncərələrindən süzülüb bayırdakı işıq selinə qarışaraq ətrafı gündüzdən fərqli etməyən bir görüntü var gözlərim qarşısında. Bu gözəlliyə gözəllik qataraq sıralanan müasir memarlıq nümunələri, səliqə-sahman, təmizlik bir-birini necə də tamamlayır.

İllər öncə, payızı belə görməmişdim. İllər öncə, payız üzümü belə güldürməmişdi. Qarşımdakı tablonun rəssamı özü olan payızın fırçasından süzülən rənglərin yaratdığı bu tabloda üzü qocalığa doğru gedən insantək qışa – məhvə doğru getməsini bilə-bilə üzündə "təbəssüm" gördüm payızın. Onun bu "təbəssümünün" bir səbəbi qısacıq ömrünü indi diyarımızın bütün kəndlərində, şəhərlərində belə firavan, maneəsiz, sevilərək "yaşamasıdırsa", digər bir səbəbi isə qışdan daha çox üşüdən sazağından-soyuğundan keçənlərin hər birini üz tutduqları ünvanlarda işıqlı, isti bir məkanın gözləməsindəndir.

✍ **Mətanət MƏMMƏDOVA**

## Test-sınaq imtahanları keçirilib



Oktyabrın 28-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və "İstedad – XXI əsr" kurslarının təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin IV-VIII sinif şagirdləri üçün test-sınaq imtahanları keçirilib. Məqsəd şagirdlərin biliklərinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlarda şagirdlərə IV sinif üçün altı, V sinif üçün yeddi fənn olmaqla, 70 sual, VI-VIII siniflər üçün isə on fənn olmaqla, 100 sual təqdim edilib. Sualların cavablandırılması üçün 150 dəqiqə vaxt ayrılıb. Onlara iş nömrəsi verilib və kodlaşma aparılıb. Nəticələr 5 gün sonra *www.istedad21.com* saytından öyrənə biləcəklər.

Qeyd edək ki, həmin gün Dövlət İmtahan Mərkəzi yeni təhsil proqramları (kurikulumlar) üzrə 2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul imtahanlarına hazırlaşan abituriyentlərin sınaq imtahanını keçirib.

Muxtar respublikada sınaq imtahanı Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilib. İmtahan saat $11^{00}$-da başlayıb və 3 saat davam edib.

İmtahanda iştirak etmək üçün 625 abituriyent qeydiyyatdan keçib. İmtahanın idarə olunmasına 30 nəzarətçi və 4 imtahan rəhbəri cəlb edilib. Şagirdlərə hər fənn üzrə 22-si qapalı, 8-i isə açıqtipli olmaqla, 30 test tapşırığı təqdim edilib. Açıq formalı tapşırıqlardan 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan situasiya və yaxud mətn əsasında hazırlanan tapşırıqlar, digərləri isə uzun müddətdir, istifadə edilən hesablama, seçim, xronologiya, uyğunluğu müəyyənetmə tipli tapşırıqlardır.

İmtahan nəticələrinin yaxın 10 gün ərzində elan olunması nəzərdə tutulur.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## 2018-ci ildə Naxçıvan Muxtar Respublikası üzrə dən üçün qarğıdalı yığımının yekunu haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Yığılan sahə (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 6,0 | 29,0 | 48,3 |
| 2. | Şərur rayonu | 898,0 | 8997,0 | 100,2 |
| 3. | Babək rayonu | 127,0 | 864,0 | 68,0 |
| 4. | Culfa rayonu | 8,0 | 36,3 | 45,4 |
| 5. | Kəngərli rayonu | 116,0 | 495,0 | 42,7 |
| 6. | Şahbuz rayonu | 2,0 | 9,2 | 46,0 |
| 7. | Sədərək rayonu | 17,0 | 93,0 | 54,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **1174,0** | **10523,5** | **89,6** |

## Şahmatçılarımız Qırğızıstan komandasına qalib gəliblər



*Naxçıvan Şahmat Mərkəzində internet üzərindən yarış keçirilib. Yarışda Naxçıvan komandası ilə Qırğızıstan Respublikasının Talas şəhərinin komandası mübarizə aparıb, azerichess.az saytı vasitəsilə yayımlanan oyunda komandaların hər birinin heyətində 7 zəka sahibi yarışıb.*

7 oyundan ibarət olan görüşün nəticəsinə əsasən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirmələri 4,5:2,5 hesabı ilə qələbə qazanıblar.

Qeyd edək ki, komandamızın heyətində Sadiq Qarayev, Zahid Allahverdiyev, Oğuz Cabbarlı, Ramal Həsənov, Nəzrin Cəfərli, Almara İbrahimbəyli və Şahnaz Əlizadə təmsil olunublar.

***Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kiçikyaşlı yeniyetmələr (2006-2008-ci illər) arasında keçirilən sambo üzrə şəhər birinciliyinə yekun vurulub.***

## Sambo birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 9 çəki dərəcəsi üzrə 60 idmançı iştirak edib.

Beynəlxalq Sambo Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda Rəhim Qaybalıyev (27 kiloqram), Səid Seyidov (30 kiloqram), Məhəmməd Qasımlı (33 kiloqram), Sami Səfərov (36 kiloqram), Əsgər Səfərov (39 kiloqram), Məhəmməd İsayev (42 kiloqram), Nihat Hətəmli (46 kiloqram), Tofiq Nəcəfov (50 kiloqram) və Rauf Cabbarlı (55 kiloqram) çəki dərəcəsində birinci olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar diplomlarla təltif ediliblər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Həftəsonu istirahətlər davam edir

Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən muxtar respublikanın dövlət qulluqçularının Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur. Həftəsonuna təsadüf edən ekskursiyalarda muxtar respublikamızın müxtəlif idarə və təşkilatlarında çalışan dövlət qulluqçuları mərkəzlə yaxından tanış olur, burada yaradılmış şəraitdən istifadə edərək asudə vaxtlarını səmərəli keçirirlər.

Oktyabrın 27-28-də isə Ağbulaq İstirahət Mərkəzinin qonaqları Naxçıvan Muxtar Respublikası Maliyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşları olublar. İkigünlük istirahət müddətində dövlət qulluqçuları burada keçirilən müxtəlif idman oyunlarında iştirak edib, film izləyib, konsert proqramına baxıb, mərkəzin digər xidmətlərindən istifadə ediblər.

Qeyd edək ki, budəfəki həftəsonu mərkəzdə 61 nəfər dövlət qulluqçusu istirahət edib.

✍ **Gülcamal TAHİROVA**

### *İtmişdir*

Məmmədov Vaqif Cəfər oğlunun adına 5 yanvar 2001-ci ildə verilmiş $07/833^{A}$ reyestr nömrəli, 10161 inventar nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Cəfərov Rza Vidadi oğlunun adına olan zabitin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 792